Ədəbiyyat qəzeti

13 mart / 2021

# Unudulmazlar bir arada

Var olmaları ilə mənəvi dünyamızı genişləndirən, gözəlimiz Azərbaycanı aləmlər içrə tanıdan, böyüdən ustad sənətkarlarımız haqqındadı bu kitab; dahi bəstəkarımız Üzeyir bəy Hacıbəyli, unudulmaz Bülbül, Şövkət xanım Məmmədova, Hüseynqulu Sarabski, Cabbar Qaryağdıoğlu, Xan Şuşinski, Fatma xanım Muxtarova, Rəşid Behbudov, Niyazi və başqalarının parlaq yaradıcılığı incələnir hər səhifəsində. Mənsub olduqları xalqın mədəniyyət işinə böyük töhfələr vermiş şəxsiyyətlərin ömür yolu dərin sayğılarla xatırlanır.




Musiqişünas alim, professor Könül Nəsirovanın rus dilində nəşr edilən "Azərbaycan vokal sənətinin ustadları" kitabının birinci cildi bu baxımdan gərgin əməyin məhsuludur. Professor Rəna Məmmədovanın redaktorluğu ilə işıq üzü görən nəşr unudulmaz xatirələr önünə qoyulan ehtiram çələngi kimidi; Özümüzü özümüzə qaytarır, özümüzü özümüzə tanıdır və sevdirir.

**Sərvaz**